**UOT:** 1 (091).
**KBT:** 87.3(4\8)

# Yunus Əmrə fəlsəfəsində insan problemi

**Ülviyyə Ağabəyova***

**Abstrakt.** Sufi şairi Yunus Əmrə insan problemini önə çəkərək, insan və onun sevgisi, bu sevginin əsas mahiyyəti haqqında fikirləri ilə fəlsəfi görüşlərini zənginləşdirmişdir. Mütəfəkkir insanı onu Yaradanı sevməyə, xeyirxah olmağa, mərhəmətə, comərdliyə səsləyir, heç kəsin könlünü qırmamağı tövsiyyə edirdi.

Yunus Əmrə öz yaradıcılığında insanın Allahla qovuşmaq səyi, həyat eşqi, kamillik məsələlərinə geniş yer vermişdir. O, insanın daxili dünyasının Allahın varlığından qopan bir nur olduğunu anlatmağa çalışmışdır. Mütəsəvvif insanın daxili aləminin Allahdan gələn bir işıq olduğunu, bəzən də insanın Allahda var olduğunu israr etmişdir. Kamilliyə çatmış insan Allahın vüsalına qovuşan və Onda var olandır. Bu yolda insanın yardımçısı Allahın özüdür.

**Açar sözlər:** Yunus Əmrə, Yaradana sevgi, insan sevgisi, kamillik, əxlaq.

## 1.Giriş

Türk-İslam ədəbiyyatının seçilmiş nümayəndələrindən olan və yaddaşlarda səmimi, açıq fikirli mütəsəvvif kimi yaşayan Yunus Əmrə özünün yaradıcılıq gücü ilə orta əsr sufilik aləmində birincilərdən hesab olunur.

Sağlam düşüncə sahibi olan Yunus Əmrənin əsərləri türk mədəni həyatının formalaşmasında mühüm əhəmiyyətə malikdir. Yunus Əmrənin ideyaları nəinki yaşadığı dövrü, eyni zamanda müasir dövrümüzü əhatə edən məsələlərlə səsləşərək öz orijinallığını itirməmişdir. Onun fəlsəfi-irfani şeirləri günümüzdə sevilərək oxunmaqdadır.

* Bakı Dövlət Universitetinin dosenti, Bakı, Azərbaycan
E-mail: ulviya.agabeyli@mail.ru
https://orcid.org/0000-0001-6734-1289
**Məqaləyə istinad:** Ağabəyova, Ü. [2022]. *Yunus Əmrə fəlsəfəsində insan problemi.* “Metafizika” jurnalı. № 1 (17), səh. 66-76

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 22.01.2022*
*Təkrar işlənməyə göndərilmişdir: 18.02.2022*
*Çapa qəbul edilmişdir: 04.03.2022*

İlahi eşq kimi, insan sevgisi də sufilik fəlsəfəsinin təməl əsaslarından biridir. Bu baxımdan Yunus Əmrə şeirlərində ilahi eşq hökmü ilə yanaşı, insan sevgisi məsələsi də geniş yer almaqdadır.

Mütəfəkkir yaradıcılığında nəzər diqqətini insan, onun sevgisi, bu sevginin əsl mahiyyəti və əsası, insanın digər varlıqlardan üstün olması məsələlərinə ayırmışdır. Əmrə fəlsəfi düşüncələrində insanın yer üzərində vəzifəsinin, cəmiyyətdəki rolunun, insanlığa bəxş edəcəyi xeyirxah töhfələrin nədən ibarət olması məsələlərini önə gətirmişdir. İnsanı Allahı və insanları sevməyə, dürüstlüyə, xeyirxahlığa, mərhəmətə, comərdliyə səsləyən Yunus Əmrə İslam dəyərlərinə əsaslanan irfani fikirlər irəli sürmüş, bununla da yaradıcılığını zənginləşdirmişdir.

**2.Yunus Əmrənin yaradıcılığı haqqında...**

Məqalədə Yunus Əmrə yaradıcılığının ana xəttini təşkil edən insan problemi tədqiq edilmişdir.

Yalnız təsəvvüf ədəbiyyatının deyil, ümumən Türkiyə ədəbiyyatının ən böyük nümayəndəsi olan Yunus Əmrə haqqında Aydın Abi Aydının “Türkiyə ədəbiyyatı tarixi” kitabında qeyd edildiyi kimi, o, *“Anadolu türkcəsinin şeir peyğəmbəridir”*. Sadə, ürəyə yatan Anadolu türkcəsində yaratdığı əsərləri Yunus Əmrəni nəinki Türkiyədə, türk-müsəlman şəhərlərində, həm də Avropada sevdirmiş və onun yaradıcılığına dair xeyli əsərlər yazılmışdır [1, 2010, s.130].

Yunus Əmrənin həyatı haqqında tam dəqiq məlumat yoxdur. Bir çox tədqiqatçılar şair haqqında nəql olunan rəvayətlərdən, əfsanələrdən, onun şeirlərindən, təzkirələrdən əldə olunmuş məlumatlar əsasında çıxış etmişlər. Bayəzid Dövlət Kitabxanasında üzə çıxarılan bir məcmuədə Yunus Əmrənin hicri 720-ci ildə vəfat etdiyi və onun 82 il ömür sürdüyü qeyd edilmişdir. Belə ki, Yunus Əmrə təxminən miladi tarixlə 1240-1241-ci illərdə Əskişəhərin Sivrihisar qəzası yaxınlığındakı Sarıköydə anadan olmuş və 1320-1321-ci illərdə orada vəfat etmişdir. Atası əslən Xorasan türklərindən olmuş, Mərkəzi Asiyadakı monqol istilaları ucbatından dövrünün bir çox digər sufi övliyaları və mütəfəkkirləri ilə birlikdə Anadoluya köç etmişdir [1, 2010, s.131].

Yunus Əmrənin mənəvi-əxlaqi dəyərlərə söykənən şeirləri sufilik təliminin, əsasən də türk-müsəlman dünyagörüşünün inkişafında mühüm əhəmiyyət kəsb edir.

Türk-müsəlman şairinin yaradıcılığının əsas ana xəttini Allah, İlahi eşq, varlıq və yoxluq, həyat və ölüm, dünyanın faniliyi, gerçək aləmin əqllə dərk oluna biləcəyi kimi məsələlər təşkil edir. İslam təsəvvüfünün ən dərin

qatlarını səlist dildə ifadə edən, təbii və gözəl şəkildə vəsf edən Yunus Əmrə türk ədəbiyyatının əzəmətli şairlərindəndir.

Şeyx Əziz Mahmud Xudayi (...-1623) şair barəsində yazır:

*"Mənəvi mərtəbələrin hansına yetdimsə, bu türkmən dərvişi Yunusu önümdə gördüm"* [8, 2004, s.7].

Yunus Əmrə sufi şairi olmaqla yanaşı, həm də zəngin təfəkkür sahibidir. O öz yaradıcılığını ardıcıl olaraq eşq, məhəbbət, qürbət, təbiət və aləm, insan və onun sevgisi, humanizm kimi məsələlərə həsr etmişdir. Onun təsəvvüfi baxışları ardıcıl olaraq fəlsəfə ilə çulğalaşır.

Mütəfəkkirin dünyagörüşünün əsasında "eşq fəlsəfəsi" dayanır. Başqa sözlə desək, onun fəlsəfəsi əxlaq modelıdır. Bu böyük murşid insana gah bəşəri, gah da mənəvi tərəfdən xitab edərək, kütləni düşünməyə, hiss etməyə sövq etmiş, bununla da insan enerjisini hərəkətə gətirməyi bacarmışdır [4, 2010, s.75].

Anadolu (türk-İslam) mədəniyyətinin formalaşmasında mühüm rol oynamış Yunus Əmrə ilahi eşq hökmü ilə təsəvvüfdə yüksək məqama çatmış övliyadır. Əsərlərində eşq anlayışı iki insanın bir-birinə olan məhəbbəti deyil, bütün mövcudatın Yaradana doğru dərin sevgisidir.

Orta əsrlərdə islamlaşmış əksər türk mütəsəvvifləri fəlsəfi düşüncələrini öz şeirlərində ifadə etmişlər. Eşq və sevgi ilə dolub-daşan, yaradıcılığında fəlsəfi ideyaları ilə çıxış edən Yunus Əmrə ozan-şairdir.

Yunus Əmrənin fəlsəfi görüşləri təsəvvüf təlimindən qaynaqlanır. O öz şeirlərində ilahi eşq və sufi düşüncəsini ifadə etmişdir.

## 3.Yunus Əmrə fəlsəfəsində insan problemi

Yunus yaradıcılığının mərkəzi əsasını eşq fəlsəfəsi ilə yanaşı, insan problemi təşkil edir. Mütəfəkkirin ilahi mənşəli əxlaqi fikirlərinin əsasında insan sevgisi, insana münasibət, yoxsullara yaxınlıq, dinindən, dilindən, milli mənsubiyyətindən asılı olmayaraq, hər kəsə şəfqətlə, sevgi ilə yanaşmaq kimi keyfiyyətlər dayanır [6, 2017, səh.13].

Onun dünyagörüşünün mərkəzi problemi İlahi eşq hökmü olmaqla bərabər, həm də insan və onun mahiyyəti, insanın Allahla yaxınlaşmaq və ona qovuşmaq cəhdi, həyat və mənəviyyat eşqi, Yaradana sevgi, kamillik və əxlaqdır. Yunus Əmrə elm və rasional biliyin qabiliyyətinin məhdudluğundan danışmış və ürfan yolunu zəruri saymış, elmin, dünyəvi biliklərin kifayət etmədiyi yerdə insanın öz daxili, irrasional təbiətindən, ruhundan çıxış etməsini vacib bilmişdir [4, 2010, s.40].

Yunus Əmrə Tanrının sonsuz, dünyanın isə sonlu olduğunu vurğulayaraq göstərmişdir ki, insan zaman-zaman gündəlik hadisələr prosesində əsl varlığından uzaqlaşaraq, dünyada keçici olanlara bağlanır. Şair

isə insanın özünü düşünməsini, müvəqqəti olan şeylərdən çəkinməsini və Allah sevgisi ilə var olmağa səy göstərməsini arzulayırdı. O, insanın özgələşməsini, mənən tükənməsini istəmir və fikrini bu misralarla ifadə edirdi:

Nerden neye geldim neye,
İnanma yalan dünyaya.
Varır olıcak sinliğe,
Girem ah dost deyi deyi. [2, 1994, s.96].

**4.İnsan və onun batini tərəfi**

Yunus insanın əsl varlığının görünən zahiri tərəfinin deyil, batini dünyasının, yəni mənəvi dünyasının, başqa sözlə, ruhani dünyasının olduğunu söyləyərək, insanın daxili dünyasının Allahın varlığından qopan bir nur olduğunu anlatmağa çalışmışdır. İnsanın daxili aləmini Allahdan gələn bir işıq olduğunu, bəzən də insanın Allahda var olduğunu söyləyən Yunus Əmrə fəlsəfəsində “vəhdət əl-vücud” konsepsiyasından çıxış etmişdir. O, bu fikirlərini vəch halında olarkən dilə gətirmiş, normal vaxtlarda isə Allahın bütün mövcudatı öz iradəsiylə yaratdığını israr etmişdir.

Mütəfəkkirə görə, insan Allahın yaratdığı ən mükəmməl varlıq olaraq onun zatının, xüsusiyyətlərinin ən kamil ifadəçisidir. Allah yaratdıqları hər şeyi sevgi, ilahi eşq əsasında yaratmışdır və bu eşq bütün yaradılmışlarda da təcəssüm edir. [2, 1994, s.97].

Yunus Əmrənin günümüzə qədər gəlib çatan səsiylə bütün insanlığa xitabı ümumbəşəri sevginin və tolerantlığın ən böyük ifadəsidir. Onun sevgi dili və eşq danışığı tamamilə Uca Yaradan üzərində cəmləşmişdir. Bütün mövcud olan canlı və cansız varlıqların sevgisini Yaradana bağlayır:

Nəzər eylə itiri, bazar eylə götürü,
Yaradılanı xoş gör,Yaradandan ötürü.

Yunusa görə Allaha qulluq etməyin əsas səbəbi Ona insanın dünyaya gəldiyi kimi tər-təmiz yetişməkdir. Bu isə heç kəsin qəlbini qırmamaqla mümkündür. İnsana göstərilən sevgi, hörmət Allaha göstərilmiş sevgi, hörmət
deməkdir:

Ben gelmedim davi için, benim işim sevi için
Dostun evi gönüllerdir, gönüller yapmaya geldim [6, 2017, s.7].

Təsəvvüf görüşündə əsas məqamlardan biri insan qəlbini qirmağın çox pis qarşılanmasıdır. Yunus bu barədə deyir:

Könül Çalabın taxtı, Çalap könülə baxtı,
İki cahan bədbaxti kim gönül yıxar isə.
Bir kəz könül yıxtın isə bu qıldığın namaz deyil,

Yetmiş iki millət dahi əlin yüzün yumaz deyil [2,1994, s.93].

Yunus Əmrənin fəlsəfi görüşləri irrasional-mistik xarakter daşıyır. O, üç əsas varlığı qəbul edir: Allah, insan və təbiət.

**5.İnsan – təbiət münasibəti**

Mütəfəkkir qeyd edir ki, digər canlılar kimi insanı da əhatə edən fiziki mühit- təbiətdir. İnsan təbiətin bir parçası kimi onunla birgə var olmaqdadır. İnsanın həyatda qalması üçün lazım olanları təbiət şərtləndirir. Bu baxımdan təbiət Yaradıcının insana verdiyi böyük nemətdir. Təbiət həm də insan üçün metafizik bir mühit olduğundan insanlar onunla qarşılıqlı əlaqədədir. İnsan bilərəkdən və ya bilməyərəkdən daim təbiətə can atır. Doğum, həyat, ölüm, mübarizə, sevmək, paylaşmaq, zərər çəkmək, ictimailəşmək və bu kimi keyfiyyətləri insan təbiətin daha maraqlı nümunələri ilə öyrənir. Məsələn, meyvənin özü insanın qidasıdır. Meyvənin çiçəyi isə estetik zövq verir. Beləki, insan hadisələr arasında oxşarlıqları dərk edir və təbiətin göstərdiyi həqiqətləri qavrayır [5, 2015, s.87].

Bütün varlıqların ibadət etdiyi bir aləm (təbiət), bir hikmət tablosu olan yer və göy insanı eyni hikmətə və biliyə səsləyir.

İnsan nə qədər təbiətlə bağlı olsa da, onun sevgisinin əsasını Allah sevgisi təşkil edir.

Yunus Əmrəyə görə sevgiyə layiq olan insana bu dəyəri Allah vermişdir. Digər varlıqlar içərisində insan ən üstün şəkildə yaradılmışdır. [5, 2015, s.113].

> *“O, yaratdığı hər şeyi gözəl yaratdı, insanı (Adəmi)” yaratmağa palçıqdan başladı. Sonra onu düzəldib insan şəklinə saldı və ona öz ruhundan üfürdü (həyat verdi)”.* [Quran, Səcdə surəsi, ayə 7-9].

Yunus yalnız insanları deyil, bütün yaradılmışlara Qurani-Kərimdəki anlayışa uyğun olaraq eyni gözlə baxılmasını söyləyirdi:

Cümlə yaradılmışa bir göz ilə baxmayan
Halqa müdərris olsa həqiqətə asidir.

Yaradılmışları sevməyin səbəbini belə ifadə edirdi: yaradılmışı Yaradandan ötrü sevin. Yunus Əmrənin təsəvvüfi baxışlarına görə insanları yaradana görə sevmək lazımdır [5, 2015, s.115].

İnsan fani (ölümlü) və əbədi (ölümsüz) olan iki ünsürdən təşəkkül etmişdir. Ölümə məhkum olan bədən dörd ünsürdən meydana gəlmişdir. Maddi ünsürlər kimi bədən də çürüyüb yox olacaqdır. Ölümsüz ünsür isə insana əsl şərəfini və dəyərini bağışlayan ilahi tərəfidir. Ruh adlandırılan bu ünsür Allahın bütün sifətlərinə məzhərdir. Bir gün Allaha qovuşacaq insanda mövcud olan əbədi ruh bizim varlığımızdır.

İnsan mahiyyəti etibarilə ilahi varlıqdır. Başqa bir tərəfdən isə, o maddidir. İnsan mahiyyəti eitbarilə, şüur və ruh baxımdan Allahın bir təcəssümü olub, yalnız Allah ilə var olur. O, var olmaq səbəbini Allahdan almışdır və Allahın məqamında ikən insan xoşbəxtdir. [5, 2015, s.115].

Yunus Əmrənin fəlsəfəsində heçlik duyğusu və ölümün reallığı məsələsi mühüm yer tutur. Heçlik duyğusu mütəfəkkirin şeirlərində insanın Allahdan gəldiyini və yenə Ona qayıdacağını, insanın bu dünyadakı varlığının keçici olduğunu ifadə edir. Bu fikirlər ilə Yunus dünyanın bir həbsxana və imtahan yeri olduğunu xatırlatmağa çalışmış, insanın bu dünyadakı qayğılarını, sıxıntılarını və qəribliyini göstərmişdir. Qurtuluş yolunu Allahı sevməkdə görən şair insanın daxili aləminin mənən saflaşdığını qeyd edirdi [2, 1994, s.94].

İnsan yer üzündə qəribdir və ilahi vüsalın həsrətini çəkməkdədir. Bunun səbəbi isə mahiyyət- varlıq arasındakı ziddiyyətdir. Yunus Əmrə bu ziddiyyətdən doğan iztirabları belə ifadə edir:

Bu dünya dönmüş zindana, salıbdır bizi gümana.
Zindanda gülmək mi olar?! Yürüyəyim yana- yana [2, 1994, s.95].

Yunus Əmrə Allahdan ayrı düşən insanın dilindən onun çəkdiyi iztirabı əcəli gözləyən adamın iztirabı və təşvişi ilə eyniləşdirir. Bu təşvişdən qurtulmaq üçün mistik yol tutanlar isə mütəfəkkirin nəzərində Allaha dost olan insanlardır:

Əcəl bükə belimizi, söylətməyə dilimizi,
Xəstə ikən halmızı, soranlara salam olsun.
Dünyaya gələnlər gedər, hərgiz gəlməz yola gedər,
Bizim halımızdan xəbər, edənlərə salam olsun [4., 2010, s.163].

İnsanın yer üzünə gəlişinin əsas məqsədi ilahi kamilliyi, ilahi sevgini, özünün daxili həqiqətini təcəssüm etdirməsidir.

**6.Kamil insan anlayışı**

Yunus Əmrəyə görə, dünyəvi şeylərə bağlılıq insanı Haqq axtarışından yayındırır. Haqqı tapan insan kamil insandır və bütün dünyəvi iztirablardan, əzab- əziyyətdən qurtulmuş sayılır. Qəlbi ilahi nur, ilahi sevgi ilə dolmuş insan ən xoşbəxt insandır. O, heç kimə paxıllıq, kin- küdurət, həsəd nümayiş etdirmir. Bir insan üçün ən böyük nemət mal- mülk, şan-şöhrət deyil, ilahi- mənəvi xoşbəxtlikdir. Buna görə də, insan yer üzündə daim Haqqın axtarışında olmalıdır:

Ey dünü gün Haqq istəyən,
Bilməzmisən Haqq qandadır (hardadır)?
Hər qandəsəm anda hazır,
Qanda baqarsam andadur [7, 2009, s.52].

Yunus Əmrəyə görə, insanın əqli, təfəkkürü məhdud olduğundan Allahı dərk etməkdə acizdir, bu baxımdan ona qovuşa bilmir. Bu qovuşma, bu vüsal üçün isə insan özünün mənəvi üstünlüyünü, vücudunda təzahür edən ilahi mahiyyəti dərk etməlidir. Allah, həqiqətən insanın öz daxilində, insanın könlündədir:

Gir könüldə bul, ondadır,
Mənliyin dəftəri dürr,
Ol xas gövhər bil ordadır,
Sanma ki o, ümmandadır [8, 2004, s.48].

Yunus Əmrəyə görə, Allahın məqamı öz yaratdıqlarının qəlbidir. İnsan öz qəlb evini, könlünü təmiz və saf saxlamalı, oranı çirkaba, natəmizliyiə məruz qoymamalıdır. Çünki, Allah insanların qəlbinə daim nəzər edər, kin- küdurət, həsəd və nifrətlə dolu olan qəlblərə heç vaxt nüzul etməz. İnsan Allahın təcəllisıdır. İnsanın "mən"i Allaha qovuşmaq, onu dərk etmək naminə kamillik və ucalıq zirvəsində olur:

Məni məndə demə, məndə deyiləm,
Məndə bir mən vardır, məndən içəri [4, 2010, s.200].

Yunus Əmrə İlahi varlıq və onun insanda təzahürü haqqında qiymətli fikirlərlə yanaşı, insanın kamillik dərəcəsinə çatmasının ən zəruri şərti olan üstün əxlaq haqqında da çox qiymətli və təsirli fikirlər irəli sürür. Aşiq Yunusa görə, insanın əxlaqlı olmasının əsas səbəbi onun eşqi tanıması və dərk etməsi, öz varlığında, şüurunda ilahi eşqi hiss etməsidir. Əgər insan Allah eşqini və humanist insan sevgisini özünün varlığında təcəssüm etdirirsə, o zaman insan yüksək əxlaqi keyfiyyətlərə malik olmuş sayılır. Eşqi mənimsəyən insan əvvəlcə öz nəfsinin mənfi meyl və istəklərinə qarşı qələbə qazanır. Eşqi öz vicdanının əsası olaraq qərar verən, nəfsini ilahi eşqə tabe etdirən insan ilahi vüsala çatır:

Eşq nəfs elinə axdı,
Nə buldu isə yakdı,
Kibrin qəfəsini yıxdı,
Anda çox savaş oldu [8, 2004, s.204].

Eşq ilə nəfs arasında gedən mübarizə eşqin qələbəsi ilə başa çatdıqda insan həqiqi aşiqlik mərtəbəsinə qədəm qoymuş sayılır. Aşiq insan isə, eşqi uğrunda hər cür qəhramanlıq və fədakarlıq göstərməyə hazır olandır. Yunus Əmrə kamil insan olmaq yolunda eşqin mahiyyətini çox yüksək tutur, onun insana lazım olan hər şeyi insana öyrətdiyini bildirir.

Eşq ilə istər idik, yenə bulduq o canı,
Gömlək edinmiş geyər, surət ilə bu canı.
Bu dünya bir bazardır, surətlər dükan olmuş,

Bu dükana giribən, odur satan bu qanı [8, 2004, s.205].

Aşiq məşuqun yolunda canından keçməyə hazır olan kəsdir. Yunus Əmrə ifadə etməyə çalışır ki, insan əgər həqiqətən Allahın aşiqidirsə və ona qovuşmağa, dünya və axirətdə ilahi qurtuluşa nail olmaq istəyirsə, onda heç düşünmədən hər şeydən imtina etməyə hazır olmalıdır. İnsan yaşadığı müddət ərzində hər zaman Haqqın odu ilə alışıb yanmalı, getdiyi hər yerdə İlahi sirrin daşıyıcısı olmalı, Allahın əzəli və əbədi xüsusiyyətlərinin birbaşa daşıyıcısı kimi çıxış etməlidir:

Halal qıldı məşuqa aşiq kəndi qanını,
Məşuq nəqşindən oxur eşq əri Quranını.
Getməz aşiq gözündən, hərgiz məşuq xəyalı,
Netəkim Zəlxa verir, Yusifin nişanını [7, 2009, s.215].

Eşqi bu qədər qiymətli edən onun insanı Allaha qovuşdurması ilə birlikdə, həm də dünyəvi vəsvəsələrdən xilas etməsidir. İctimai həyatında insan eşq vasitəsilə ilahi həyatı yaşayır, öz davranışında da ilahi xüsusiyyətləri əks etdirərək kamil insan obrazına çevrilir. Buna görə də, Yunus təsəvvüf təliminin ruhuna uyğun olaraq bu eşqin insanın qəlbinə yerləşməsində köməkçi olacaq bir dosta, Allah sadiqinə ehtiyyac hiss olunduğunu da bildirir:

Yunus aydur, ər quluyam,
Tapduğumuz dost üzidir.
İşbu sözə inanmayan,
Edə bilsin etdiyini [7, 2009, s.217].

**7.Yunus Əmrə əxlaq haqqında**

Mütəfəkkir insan tərbiyəsinə və əxlaqına cox önəm vermiş və özü Allaha layiqli bir qul olmağa çalışmışdır. Allah yolunda çalışanların bəzi özəlliklərini göstərmişdir: heç kimi alçaltmamaq, nəfsi boğmaq, eyş-işrətdən, lovğalıqdan uzaq olmaq, dünya malına aldanmamaq, təvazökar və sadə olmaq, Allahı sevmək, əqlin dəyərini bilmək, həqiqət üçün çalışmaq, könül qirmamaq, ölmədən öncə ölmək.

Yunus Əmrə ölmədən öncə ölməyin önəmini belə ifadə edir:

Mən dost ilə dost olayım,
Canım fəda edəyim.
Ölməzdən əvvəl öləyim
Dünya baki qalmaz bana [2, 1994, s.92].

Dahi şairə görə, həqiqi əxlaqın əsas qayəsi məhz ilahiyə olan sevgidir. O öz şeirlərində ilahi sevgini mütləqləşdirir, onu müqəddəs olaraq qələmə verir. Həqiqi eşq insanı bütün dünyəvi işlərdən soyudan, yalnız Allaha yönəldən eşqdir:

Eşqin aldı məndən məni, mənə səni gərək, səni.
Mən yanaram, dünü (bütün) günü, mənə səni gərək səni [8, 2004, s.137].

Və yaxud:

Canını eşq yolunda verməyən aşiqmidir?!
Cəhd eyləyib ol dosta irməyən aşiqmidir ?! [7, 2009, s.35].

Türk şair-mütəsəvvifi Yunus Əmrə islam qaydalarına söykənərək, sufiyanə görüşlərində insanın müsafirə, qəriblərə qonaqpərvərlik göstərməsini, könülləri qirmamasını, irq, dil və din fərqi qoymadan, sosial mənsubiyyət, məqam, zənginlik, fəqirlik kimi anlayışları mütləqləşdirmədən necə davranmağı ifadə etmişdir. İnsansevərlik, dözümlülük, ədalət, mərhəmət, fədakarlıq, sədaqət, vəfalılıq, yardımsevərlik, səbr kimi xüsusiyyətlər insanın ən mükəmməl keyfiyyətləridir. Bütün yaxşı əməllərin mənbəyi eşq və sevgidir [3, 1976, s.303].

Yunus Əmrəyə görə, insan "adəm" ünsürünə qalib gələrək Haqqa yetişən kamil insandır. Bu zaman kamil insan ən ali biliyə çatmış olur. Allahı dərk etmək üçün insan özünü dərk etməlidir. Bu halda ən mühüm bilk insanın sirlərini öyrənən elmdir. İnsanın sirrini elmi kitablarla deyil, eşq yolu ilə, mürşid vasitəsilə, yəni təsəvvüf elmi ilə öyrənmək mümkündür. Kamilliyə çatan insan eşqi və sevgini yaşaya bilər. Yunus Əmrəyə görə, Allaha gedən yol insanın insana verdiyi dəyərdən keçir [3, 1976, s.321].

**8.Nəticə**

Böyük təsəvvüf şairi Yunus Əmrənin şeirlərində onun ruhani hissləri, daxili aləminin nuru hiss edilməkdədir. O, fəlsəfi, əxlaqi görüşlərində insan oğlunu bəşəriyyət üçün gərəkli işlər görməyə səsləmiş, yaşadığı müddətdə davranışı ilə, danışığı və hərəkətləri ilə heç kimə ziyan verməmək, kimsənin qəlbini qırmamaq, nümunəvi yüksək keyfiyyətlər nümayiş etdirmək və bununla da cəmiyyətdə faydalı olmaq prinsipini irəli sürmüş, insanın digər yaradılmışlardan üstün olduğu ideyasını aşılamağa çalışmışdır. Bunun üçün insan eşq və sevgi yolu ilə yürüyərək insanları, təbiəti sevməli, özü-özünü dərk etməli, sonda İlahi vüsala çatmalıdır. İlahi vüsala yetmiş kəs kamillik dərəcəsinə İlahi eşq sayəsində yüksələndir.

Yunus Əmrə bir Haqq dərvişi olduğu üçün cəmiyyətdə daim müsbət qarşılanan davranışların tərəfindədir. O, insanı xeyirxah əməllər görməyə, bədxah əməllərdən çəkinməyə səsləyir. Belə ki, Yunus Əmrə yaradıcılığında insana, onun əxlaqi keyfiyyətlərinə xüsusi önəm verir və qeyd edir ki, insan dünyəvi həyatdan mənəvi həyata yüksəlməli, İlahi vüsala qovuşmalıdır.

Demək, Yunus Əmrə insanlığın qorunması üçün, bəşəriyyətin sevgi ilə əhatə olunması üçün İlahi eşq ilə alışıb-yanan ozan şairdir. Yunus

yaradıcılığında iç dünyasını insana xitabən ifadə edir. Şeirlərindəki səmimiyyət onun pak, saf və dürüst bir qəlbə sahib olduğundan xəbər verir.

## ƏDƏBİYYAT

1. Aydın, Abi Aydın., (2010). Türkiyə ədəbiyyatı tarixi. I cild. Bakı: Təknur, 448 s.
2. Çubukcu İ. A. (1994). "İslam düşünürleri", Ankara Üniversitesi İlahiyyat Fakültesi yayınları, Ankara, 178 s.
3. Köprülü, Fuad., (1976). Türk Edebiyatında ilk Mutasavvıflar, Dinayet işleri başkanlığı yayınevi, Ankara, 415 səh.
4. Özçelik M., (2010). Bizim Yunus. Eskişehir:TC Eskişehir Valiliği yayınevi, 239 s
5. Özçelik, M., (2015). Yunus Emre. İstanbul: Kültür Yayınları, 232 s.
6.Tavukçu, O.K., (2017).Yunus Emre kitabı. Akçağ yayınevi, Ankara,, 266s.
7. Yunus Əmrə Əsərləri. (2009). Bakı: Şərq-Qərb, 360 s.
8. Yunus Əmrə Əsərləri. (2004).Tərtibçi: C.Bəydilli. Bakı: Öndər nəşriyyatı, 326 s.

## Проблема человека в философии Юнуса Эмре

**Ульвия Агабекова***

**Абстракт.** Суфийский поэт Юнус Эмре, подчеркивая человеческую проблему, обогатил свои философские воззрения мыслями о человеке и его любви, сущности этой любви. Мыслитель призывал человека любить своего Создателя, быть добрым, сострадательным, великодушным и не разбивать никому сердце.

В своем творчестве Юнус Эмре широко освещал вопросы воссоединения человека с Богом, любви к жизни и совершенству. Он пытался объяснить, что внутренний мир человека-это свет, отрывающийся от существования Бога. Суфии настаивали на том, что внутренний мир человека обогащен светом от Бога, и что человек иногда существует в Боге. Совершенный человек-это тот, кто примирился с Богом и существует в Нем. Сам Бог помогает человеку на этом пути.

**Ключевые слова:** Юнус Эмре, любовь к Творцу, человеческая любовь, совершенство, мораль.

---

* Доцент Бакинского Государсвенного Университета, Азербайджан
E-mail: ulviya.agabeyli@mail.ru
https://orcid.org/0000-0001-6734-1289

**Цитировать статью:** Агабекова, У., [2022]. *Проблема человека в философии Юнуса Эмре.* Журнал «Metafizika». № 1 (17), с. 66-76

***История статьи:***
*Статья поступила в редакцию: 22.01.2022*
*Отправлена на доработку: 18.02.2022*
*Принята для печати: 04.03.2022*

## The Problem of Human in the Yunus Emre Philosophy

**Ulviyya Aghabayova***

**Abstract.** The Sufi poet Yunus Emre drew attention to the human problem and enriched his philosophical views with thoughts about human and their love, the essence of this love. The thinker called on a person to love their Creator, to be kind, compassionate, generous and not to break someone's heart.

In his work, Yunus Emre paid great attention to the issues of a human's desire to be reunited with God, love of life and perfection. He tried to explain that the inner world of man is a light detached from God. The Sufis insisted that the inner world of human is the light of God, and that man sometimes exists in God. A perfect man is the one who has reunited with God and exists in Him. It is God Himself who helps human along this path.

**Keywords:** Yunus Emre, love to the Creator, human love, perfection, morality.

## REFERENCES

1. Aydin, Abi Aydin., (2010). Turkiye edebiyyati tarikhi. I. Baku: Taknur (in Azerbaijani)
2. Chubukcu I. A. (1994). "Islam dushunurleri". Ankara: Ankara Universitesi Ilahiyyat Fakultesi yayinlari (in Turkish)
3. Koprulu, Fuad., (1976). Turk Edebiyatinda ilk Mutasavviflar, Ankara: Dinayet ishleri bashkanlıghi yayinevi (in Turkish)
4. Ozchelik M., (2010). Bizim Yunus. Eskishehir: TC Eskishehir Valilighi yayinevi (in Turkish)
5. Ozchelik, M., (2015). Yunus Emre. Istanbul: Kultur Yayinlari (in Turkish)
6.Tavukchu, O. K., (2017). Yunus Emre kitabi. Ankara: Akchagh yayinevi (in Turkish)
7. Yunus Emrə Eserleri. (2009). Baku: Sherq-Qerb (in Azerbaijani)
8. Yunus Emre Eserleri. (2004). Tertibchi: C.Beydilli. Baku: Onder neshriyyati (in Azerbaijani)

* Associate Professor of Baku State University, Azerbaijan
E-mail: ulviya.agabeyli@mail.ru
https://orcid.org/0000-0001-6734-1289

**To cite this article:** Aghabayova, U., [2022]. *The Problem of Human in the Yunus Emre Philosophy*. "Metafizika" journal. № 1 (17), pp.66-76

**Article history:**
Received: 22.01.2022
Accepted: 04.03.2022